

## *RISGÜL İZATOVA*
(РЫСКУЛ ИЗАТОВА) –

*13 may 1994-cü ildə Narın bölgəsinin*
*Koçkor elinin Tendik kəndində doğulub.*
*İşenalı Arabayev ad. Qırğız Milli Universitetini bitirib.*
*Uluslararası "Nur borbor" Yaradıcı Gənclər*
*Akademiyasının üzvüdür.*
*Hazırda jurnalistlika və*
*pedaqogika sahəsində çalışır.*

## *YENƏ MƏNİ GÖZLƏRMİSƏN?..*

Könül əgər qırılarsa, düzəlməz,
Görməz olar... bütün yollar qarışar.
Gül üzündən göz çəkməyi bacarmaz,
Başqasıyla ağıl necə barışar?

Qaş çatılı, ürək üzgün, həvəs yox,
Bu hal ilə deyin necə yaşaram?
Çox adamın eşqinə mən susqunam,
Qayğıların ağuşunda çaşaram.

Əsil adam, dinlə mənim sözümü,
Xoşbəxtliyin üçün əngəl olamam.
Yaraşıqlım, yox bu eşqin çözümü,
Özgəninəm, gəlib səndə qalamam.

Yenə məni gözlərmisən hələ sən?..

## *ÇIRPINTI*

Gün işığı pəncərədə sınaraq,
Gülə-gülə oxşadı gül üzünü.
Bu gün səni düşünərək söylədim:
"Bu sabah o neyləyibdir?.." sözünü.

Olar-olmaz nələrəsə sıxılıb,
Ola bilər qayğılıdı əhvalın;
Baxma, başım olmazlara qarışdı,
O gün-bu gün dildən düşmür heç adın…

Günü-gündən artır sənə həsrətim,
Könlümdəsə tasalarım daşır, hey...
Gərçi qədər məni rahat buraxmaz,
Səni görmək arzusuyla coşur, hey...

Görüşməyə umutlarım can atar,
Gecə-gündüz könül sızlar... kədərli.
Sonsuzadək davam edər bu istək,
"GƏL" deməyin yetərlidi, yetərli...

## *BAĞIŞLA*

Hökmünü sürdürür, haqq da eləyir,
Hüzünlü hisslərim köz ürəyimdə.
Səndən əl çəkmərəm, lap belə olsun,
Olsun başqa biri öz ürəyində...

Bezdirdi içimin iztirabları,
Məni yalqız qoydu bu istilası;
Mənim misralarım qan ağlamaqda,
Ümidi parlatdı eşqin cilası…

Ağlaram, duyduğum dilimə gəlməz,
Qarşılıqsız sevda önünə gəlməm.
Sizdən əfv diləram, ey şeirlərim,
Neynim, o adamı unuda bilməm.

(Çevirən: **İbrahim İLYASLI**)